**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi**
**sistemində fəaliyyət göstərən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinin**

# PROQRAMI

## Fortepiano

1. Fortepianoda klassik musiqi üzrə tədris repertuarından bir əsərin ifası (sərbəst seçimlə), verilən əsərin üzdən oxunması və təhlili (forma, quruluş, janr, üslub xüsusiyyətləri, yaradıcılıq cərəyanları – klassisizm, romantizm, impressionizm).
2. Alətin yaranması və inkişaf tarixi.
3. Alət üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr, etüdlər, polifonik əsərlər, iri formalı əsərlər və s.).
4. Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığı.
5. Xarici ölkə bəstəkarlarının fortepiano yaradıcılığı.
6. Görkəmli fortepiano ifaçıları və məktəbləri.
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (ixtisasın tədris metodikası -oturuş, əllərin quruluşu, şagirdin texniki ifa imkanlarının inkişafı, mövzu, intonasiya, dinamika, dramaturgiya, obraz üzərində iş, müəllim-şagird ünsiyyəti).

## Simli alətlər
## (violin, viola, violonçel, kontrabas, arfa)

1. Alətdə klassik musiqi üzrə tədris repertuarından bir əsərin ifası (sərbəst seçimlə), verilən əsərin üzdən oxunması və təhlili (forma, quruluş, ştrixlər, ibarə, cümlə, bədii məzmun).
2. Alətin yaranması və inkişaf tarixi.
3. Alət üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr, etüdlər, iri formalı əsərlər və s.).
4. Azərbaycan bəstəkarlarının müvafiq alət üzrə yaradıcılığı.
5. Xarici ölkə bəstəkarlarının müvafiq alət üzrə yaradıcılığı.
6. İfaçılıq məktəbi ənənələri haqqında anlayış, müvafiq alət üzrə görkəmli ifaçılar.
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (İxtisasın tədris metodikası - əllərin quruluşu, keçidlər, vibrasiya, qrifin, pozisiyaların mənimsənilməsi yolları, hər iki əl üzərində qoyulan tapşırıqlar və onların həlli yolları, ştrixlər, dinamika, rəng çalarları, cümlə, ibarə, ifaçılıq mədəniyyəti, müəllim-şagird ünsiyyəti).

## Nəfəs və zərb alətləri
## (fleyta, qoboy, klarnet, faqot, trompet, trombon, tuba, valtorna, saksofon və zərb alətləri)

1. Alətdə klassik musiqi üzrə tədris repertuarından bir əsərin ifası (sərbəst seçimlə), verilən əsərin üzdən oxunması və təhlili (forma, quruluş, ştrixlər, ibarə, cümlə, bədii məzmun, dinamika, tembr və s.).
2. Alətin yaranması və inkişaf tarixi.
3. Alət üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr, etüdlər, iri formalı əsərlər və s.).

4. Azərbaycan bəstəkarlarının müvafiq alət üzrə yaradıcılığı.
5. Xarici ölkə bəstəkarlarının müvafiq alət üzrə yaradıcılığı.
6. Müvafiq alət üzrə görkəmli ifaçılar və məktəblər.
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (İxtisasın tədris metodikası - əllərin quruluşu, keçidlər, vibrato, nəfəsin düzgün qoyuluşu, xüsusi nəfəsalmanın metodikası, ambuşürun düzgün qoyuluşu, hər iki əl üzərində qoyulan tapşırıqlar və onların həlli yolları, müəllim-şagird ünsiyyəti).

**Xalq çalğı alətləri**
**(tar, kamança, qanun, balaban, saz, qarmon, nağara)**

1. Alətdə bir bəstəkar əsərinin ifası (sərbəst seçimlə), verilən əsərin üzdən oxunması və təhlili (forma, quruluş, ştrixlər, ibarə, cümlə, bədii məzmun, dinamika, rəng çalarları və s.). Alətin muğamlara uyğun köklənmə qaydası. Muğam ifa etmək, şöbə və guşələrini göstərmək (tədris proqramlarına uyğun).
2. Alətin yaranması və inkişaf tarixi.
3. Alət üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr, etüdlər, iri formalı əsərlər və s.).
4. Azərbaycan bəstəkarlarının müvafiq alət üzrə yaradıcılığı.
5. Xarici ölkə bəstəkarlarının müvafiq alət üçün köçürülən əsərləri.
6. Müvafiq alət üzrə görkəmli ifaçılar.
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (ixtisasın tədris metodikası, müəllim-şagird ünsiyyəti).

**Digər alətlər (gitara, akkordeon, sintezator)**

1. Alətdə klassik musiqi üzrə tədris repertuarından bir əsərin ifası (sərbəst seçimlə), verilən əsərin üzdən oxunması və təhlili (forma, quruluş, ştrixlər, ibarə, cümlə, bədii məzmun, dinamika, rəng çalarları və s.).
2. Alətin yaranması və inkişaf tarixi.
3. Alət üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr, etüdlər, iri formalı əsərlər və s.).
4. Bəstəkarların müvafiq alət üzrə yaradıcılığı.
5. Müvafiq alət üzrə görkəmli ifaçılar.
6. Musiqi terminləri.
7. Müəllimin peşə səriştəsi (ixtisasın tədris metodikası, müəllim-şagird ünsiyyəti).

**Xanəndəlik**

1. Hər hansı bir muğamın ifası (tədris proqramı üzrə).
2. Sərbəst seçimlə xalq mahnısının və bəstəkar mahnısının ifası.

3. Muğamlar, zərbi muğamlar, təsniflər, qəzəllər, bayatı, qoşma, vəznlər (heca, əruz) haqqında məlumatlar (mənaları, xarakteri, quruluşu, şöbələri).
4. Klassik muğam ifaçıları, ədəbi məclislər
5. Azərbaycan bəstəkarlarının ixtisas üzrə yaradıcılığı.
6. Musiqi terminləri.
7. Müəllimin peşə səriştəsi (ixtisasın tədris metodikası, müəllim-şagird ünsiyyəti).

**Vokal, estrada oxuma ixtisası üzrə**

1. İxtisas üzrə sərbəst seçimlə bir vokal və ya estrada əsərini (mahnı, romans, ariya, vokaliz) oxumaq.
2. Vokal və estrada oxuma üzrə əsərin təhlili.
3. Vokal və estradanın inkişaf tarixi.
4. İxtisas üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr, mahnılar, romanslar və s.).
5. Azərbaycan bəstəkarlarının vokal yaradıcılığı.
6. Xarici ölkə bəstəkarlarının vokal yaradıcılığı.
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (ixtisasın tədris metodikası - musiqinin bədii qavrayışı, dayaqlı sabit oxuma, diapazon boyu səsin bərabər həcmdə səslənməsi, ifanın intonasiyası, metroritmik dəqiqliyi, ahəngdarlığı, açıq və yarıaçıq səsin ifası, eləcə də düzgün artikulyasiya, oxuma zamanı korpusun düzgün vəziyyəti, müəllim-şagird ünsiyyəti).

**Xor dirijorluğu ixtisası üzrə**

1. Xor sənəti, xor haqqında məlumat, xorun mahiyyəti, tarixi inkişafı.
2. Partitura oxunuşu, xor əsərinin təhlili, xor aranjirovkası.
3. Xorşünaslıq (diksiya, xorun növləri, qadın, uşaq, kişi səslərinin diapazonu və s.).
4. Xormeyster vərdişləri, xorun təşkili (şagirdlərin səslərinin təyini), xorun idarə olunması, xorla konsertmeysterin əlaqəsi, səhnə mədəniyyəti.
5. Azərbaycan bəstəkarlarının xor yaradıcılığı.
6. Xarici ölkə bəstəkarlarının xor yaradıcılığı.
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (müəllim-şagird ünsiyyəti).

**Nəzəriyyə ixtisası üzrə**

1. Musiqi əsərinin təhlili (forma, quruluş, dinamika, obraz və s.).
2. Musiqi məktəblərində tədrisi aparılan Azərbaycan və xarici ölkə bəstəkarlarının həyat və yaradıcılığı haqqında məlumat.
3. Musiqi ədəbiyyatı fənni üzrə proqram çərçivəsində əsərin üzdən oxunması (fortepianoda ifası).

4. Proqram çərçivəsində səslənən əsərlərin təyin edilməsi.
5. Verilmiş tonallıq və səslərdən interval və akkordların qurulması. Azərbaycan ladları (səs qatarları, tam kadanslar ifa etməklə). Solfecio nömrələrinin üzdən oxunması Müvafiq fənlər üzrə dərsliklər və not ədəbiyyatı (dərsliklər, məcmuələr və s.).
6. Azərbaycan xalq musiqi yaradıcılığı (xalq mahnıları, rəqsləri, aşıq musiqisi haqqında ümumi məlumat).
7. Musiqi terminləri.
8. Müəllimin peşə səriştəsi (müvafiq fənlərin tədris metodikası, müəllim-şagird ünsiyyəti).

**Xoreoqrafiya ixtisası üzrə**

1. Xalq səhnə rəqsi (fənnin xarakteristikası, proqram tələbləri və tədris metodikası).
2. Klassik rəqs (proqram tələbləri və tədris metodikası).
3. Tarixi məişət və müasir bal rəqsi (proqram tələbləri və tədris metodikası).
4. Azərbaycan xalq rəqsləri (yaranma tarixi, növləri və ümumi məlumat).
5. Azərbaycan və xarici baletmeysterlərin yaradıcılığı.
6. Bəstəkarların yaradıcılığında balet janrı (XIX –XX əsr).
7. Müəllimin peşə səriştəsi, müəllim-şagird ünsiyyəti.

**Rəssamlıq (heykəltəraşlıq) ixtisası üzrə**

1. Rəssamlıq üzrə natürmort çəkmək (sulu boya ilə), heykəltəraşlıq üzrə kompozisiyanı işləmək (2 akademik saat vaxt verilir).
2. Təsviri incəsənət tarixi.
3. Rəsm (fənnin xarakteristikası, proqram tələbləri, tədris metodikası).
4. Rəngkarlıq (fənnin xarakteristikası, proqram tələbləri, tədris metodikası).
5. Heykəltəraşlıq (fənnin xarakteristikası, proqram tələbləri, tədris metodikası).
6. Kompozisiya (fənnin xarakteristikası, proqram tələbləri, tədris metodikası).
7. Dəzgah-tətbiqi sənəti (fənnin xarakteristikası, proqram tələbləri, tədris metodikası).
8. Plastik anatomiya (fənnin xarakteristikası, proqram tələbləri, tədris metodikası).
9. Təsviri incəsənətdə üslublar, janrlar, cərəyanlar.
10. Görkəmli sənətkarlar (rəssamlar, heykəltəraşlar).
11. Müəllimin peşə səriştəsi, müəllim-şagird ünsiyyəti.